# AQRAR SAHƏDƏ TORPAQ RESURSLARINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN ƏSAS PRİORİTETLƏRİ



**Vahid Abbasov,**
*Bakı Dövlət Universitetinin İqtisadiyyat kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor*
*e-mail: vahid.abbasov.56@mail.ru*
*https://orcid.org/0009-0004-7934-3408*

**Tural Əsgərov,**
*Bakı Dövlət Universitetinin doktorantı*
*e-mail: turalasgarov50@gmail.com*



*https://doi.org/10.30546/2706-7858.2026.09.3.343*

**UOT:** 332.3:338.43:631.11

**Xülasə.** *Ölkədə baş verən əhali artımı ilə torpaqlarla təminolunma səviyyəsi arasında statistik asılılıqlar təhlil olunaraq, torpaq resurslarından səmərəli istifadəyə dair beynəlxalq müqayisələr əsasında təkliflər və tövsiyələr hazırlanmışdır. Məqalədə, məhz əsas istehsal vasitəsi kimi torpaq resurslarından istifadənin əsas xüsusiyyətləri nəzərdən keçirilməklə insan cəmiyyətinin mövcud olmasında və dinamik olaraq daima artan maddi-mənəvi tələbatlarının ödənilməsində və dayanıqlı inkişafa nail olunmasında torpağın rolu tədqiq edilmişdir. Həmçinin kənd təsərrüfatına yararlı torpaqların struktur dəyişkənliyində baş verən müsbət dinamika ilə yanaşı, biçənək və örüş-otlaq sahələrinin həcminin və dincə qoyulmuş torpaqların ümumi sahəsinin azalması ilə müşayiət olunan dəyişikliklərin səbəbi aşkarlanmaqla, gələcəkdə növbəli əkin sisteminin tətbiqində yarana biləcək çətinliklər nəzərdən keçirilmişdir. Araşdırma çərçivəsində torpaqların münbitliyinin bərpası məqsədilə iri kəndli təsərrüfatlarının yaradılması ilə intensiv əkinçiliyin tətbiq olunması, müasir becərmə texnologiyalarının tətbiqi, kənd təsərrüfatı istehsalçılarının texniki təminat səviyyəsinin yaxşılaşdırılması, eləcə də kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin dəqiq uçotunun aparılması və mühafizəsinin təşkili, torpaqların vahid məlumat bazasının yaradılması kimi tədbirlər sayəsində aqrar sahədə istehsal potensialının və rəqabətliliyin möhkəmləndirilməsi kimi zəruri tədbirlərin həyata keçirilməsinə dair təminatın yaradılması, torpaqlardan səmərəli istifadənin əsas prioritetlər sırasına daxil edilməsi məsələlərinə toxunulmuşdur.*

***Açar sözlər:*** *torpaq resursları, torpağın rolu, əkin sahələri, torpaqların münbitliyi, iqtisadi qiymətləndirmə.*
***Keywords:*** *land resources, role of land, arable land, soil fertility, economic assessment.*
***Ключевые слова:*** *земельные ресурсы, роль земли, пахотные земли, плодородие почвы, экономическая оценка.*

**Əsas istehsal vasitəsi kimi torpaqdan istifadənin xüsusiyyətləri**

İqtisadi fəaliyyətin bütün sahələrində, xüsusilə də kənd təsərrüfatında torpaq resursları əsas istehsal vasitəsi və məkan amili olaraq maddi nemətlərin istehsalı, emalı və bütün infrastruktur bölmələrinin səmərəli fəaliyyət göstərməsində vacib şərtləndirici amil olmaqla yanaşı, istehsal və istehlakın qarşılıqlı şəkildə əlaqələndirilməsinin təbii əsasını təşkil edir. Son yarım əsrlik bir

dövrdə ölkə əhalisinin hər 100 nəfərinə düşən kənd təsərrüfatına yararlı torpaq sahələrinin həcmi 81 hektardan 47 hektara enmiş, yaxud da 42%-dən çox azalmışdır. Bu azalmada mühüm rol oynayan əsas amillərdən biri torpaq resurslarının məhdud olduğu, obyektiv və subyektiv səbəblərdən kənd təsərrüfatına yararlı torpaqların istifadəsində yol verilən xoşagəlməz halların sayəsində bütün dünya coğrafiyasında baş verdiyi kimi, Azərbaycanda da əhali artımının müşahidə olunmasıdır. Belə ki, 1970–2024-cü illər ərzində ölkə əhalisinin sayı 5,23 milyondan 10,22 milyona, yaxud da 95,4% artsa da, ərzaq və qida tələbatında mühüm rol oynayan kənd təsərrüfatına yararlı torpaqların həcmi cəmi 12,2% artaraq 4,77 milyon hektar təşkil etmişdir *(şəkil 1)* [1].



Şəkil 1. Əhali sayı və k/t-na yararlı torpaqların dinamikası

Təhlillərdən göründüyü kimi, əhalinin ərzaq, qida, geyim və digər istehlak tələbatlarının artım tempi ilə bu tələbatların ödənilməsində mühüm rol oynayan torpaq resurslarının mövcudluğu arasında tərs mütənasiblik müşahidə olunmaqdadır. Ona görə də belə bir uyğunsuzluq şəraitində torpaq resurslarından səmərəli istifadə kənd təsərrüfatı istehsalında və bütövlükdə ölkə iqtisadiyyatında məşğulluğun təmin olunmasında böyük əhəmiyyətə malikdir.

Müxtəlif istehsal fəaliyyətlərində torpaq resurslarından istifadənin rolu və əhəmiyyəti müxtəlifdir. Sənaye istehsalını əhatə edən emal sahələrində torpaq resurslarından istifadə sənaye obyektlərinin yerləşməsi üçün məkan və orada aparılan əməliyyatlar üçün bazis rolunu oynayır. Hasilat sənayesi sahələrində isə torpaqlardan necə istifadə olunması xüsusi əhəmiyyət kəsb edir. Burada istehsal prosesi torpağın keyfiyyətindən, relyefindən və digər xüsusiyyətlərindən asılı olmasa da, hər şeydən əvvəl, yer səthinin müəyyən qatlarından əldə olunan xammalın daşınması, saxlanılması və emalı elə həyata keçirilməlidir ki, mövcud ərazilərin təbiətinə, ilk növbədə, kənd təsərrüfatına yararlı torpaq sahələrinə, yaşıllıqlara, meşələrə və su mənbələrinə ciddi xələl gətirə bilər ki, bu da ümumilikdə ölkədə ətraf mühitin qorunması işində ciddi mənfi təsirlərə səbəb ola bilər. Odur ki, filiz və tikinti xammalı hasil edilən, saflaşdırılması və emalı həyata keçirilən rayonlarda ətraf mühitin qorunması məsələlərinə xüsusi diqqət yetirilməlidir, əks halda torpaq örtüyünün qorunması, su hövzələrinin çirklənməsi və kənd təsərrüfatına yararlı torpaqların çirklənməsi yenidən dövriyyəyə qaytarılması prosesində ciddi problemlərin yaranmasına səbəb ola bilər. Emal müəssisələrinin hasilat sahələrinə yaxın məsafələrdə yerləşdirilməsi ətraf rayonlarda bol işçi qüvvəsindən və digər resurslardan səmərəli istifadə üçün də yararlı ola bilər. Kənd təsərrüfatında bitkiçilik və heyvandarlıq məhsullarının əldə olunması torpağın həm kəmiyyət, həm də keyfiyyət göstəricilərindən, torpaqlardan necə istifadənin xarakter və istismar şərtlərindən birbaşa asılıdır. Torpaq kənd təsərrüfatında vacib məhsuldar bir qüvvə hesab olunur və onsuz kənd təsərrüfatında kütləvi istehsalı həyata keçirtmək qeyri-mümkündür. Torpaq resursları kənd təsərrüfatında əvəzedilməz əmək predmeti kimi fəaliyyət göstərir və torpağın üst məhsuldar qatı kənd təsərrüfatı məhsullarının istehsal və artımında zəruri şəraitləri təmin edir. Eyni zamanda torpaq əmək predmeti kimi kənd təsərrüfatı məhsullarının əldə olunması üçün istehsalın mexaniki, fiziki və bioloji xüsusiyyətlərindən yararlanmaqla kənd təsərrüfatında aktiv əsas istehsal vasitəsi hesab olunur.

Torpaq əmək prosesinin zəruri və ən vacib maddi elementi və istehsalın maddi amillərindən biri kimi kənd təsərrüfatında təkrar istehsal olunmayan əsas istehsal vasitəsidir. Bu xüsusiyyətlərinə görə torpaq xüsusi, yeganə, əvəzolunmaz və başqalarına oxşamayan istehsal vasitəsidir. Torpaqların ərazicə məhdudluğu və onun üst qatının sahəsini artırmaq mümkün olmadığı kimi, hər bir ölkənin ərazisi torpaq sərhədləri ilə, eləcə də bütövlükdə planetar səviyyədə quru torpaq səthi ilə məhdudlaşmaqdadır. Bütün yer kürəsinin quru hissəsinin sahəsi 149,1 mln. kv km olub, bütün ərazinin 29,2%-ni, qalan 70,8%-ni isə su təşkil edir. Yer səthinin quru hissəsinin 20%-i səhralıqlar, 30%-i meşələr, 20%-ə qədəri isə seyrək meşə və kolluqlar 30%-ə qədəri isə dağlarla

əhatə olunmuşdur.

Kənd təsərrüfatı üçün yararlı torpaqlar isə yerin quru hissəsinin 10%-dən çoxunu əhatə etməkdədir. Birləşmiş Millətlər Təşkilatının Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının (FAO) məlumatlarına görə, dünya üzrə kənd təsərrüfatına yararlı torpaqların 10%-i əkinlərin, 17%-i otlaq və biçənəklərin, 23%-i meşələrin, 42%-i isə təbii-iqlim şəraitinin olmaması ucbatından kənd təsərrüfatında istifadə üçün yararsızdır. Yer səthinin ərazisinin 8%-i isə şəhərlərin, yaşayış məntəqələrinin, sənaye müəssisələrinin və digər obyektlərin yerləşdiyi məkanlardan ibarətdir [4].

Milli coğrafi məkanlara aid olan torpaq resurslarından istifadənin sosial-iqtisadi əhəmiyyətini əsas tutaraq ölkəmizdə də kənd təsərrüfatına yararlı torpaqlardan istifadəyə xüsusi diqqət göstərilməlidir. Əhali sayında müşahidə olunan dinamik artımla əlaqədar olaraq ölkə əhalisinin hər 100 nəfərə düşən kənd təsərrüfatına yararlı torpaqların sahəsi 1970–1991-ci illərlə müqayisədə 810 hektardan 610 hektara enmiş, yaxud 24,7%-dək azalmışdır. Bu azalma müstəqillik əldə etdiyimiz 1991-ci ildən 2024-cü ilədək olan dövrdə də müşahidə olunaraq 610 hektardan 470 hektara qədər enmiş, yaxud da 23%-ədək azalmaqda davam etmişdir *(şəkil 2)*.



Şəkil 2. Hər nəfərə düşən k/t-na yararlı torpaqların və əkinlərin dinamikası

Ölkə əhalisinin hər nəfərinə düşən əkin sahələrinin həcmi isə aşağı templərlə müşahidə olunan azalmalara məruz qalmışdır. Belə ki, hər 100 nəfərə düşən əkin sahələrinin həcmi 1970–1991-ci illər ərzində 260 hektardan 220 hektara enmiş, yaxud da cəmi 15,4% azalmışdır. Bu azalma 1991–2024-cü illər ərzində isə 220 hektardan 200 hektara qədər, yaxud 9,1% azalmışdır. Bütövlükdə isə əkinlər, biçənək və örüş-otlaq sahələrinin dinamikasında fərqli dəyişikliklər müşahidə olunmaqdadır. Qrafikdən göründüyü kimi, ölkə əhalisinin hər 100 nəfərinə düşən kənd təsərrüfatına yararlı torpaqların sahəsi müqayisə olunan 1970–2024-cü illərdə 81 hektardan 47 hektara enmiş yaxud 42% azalsa da, hər 100 nəfərinə düşən əkin sahələrinin həcmi 26 hektardan 20 hektara enmiş yaxud da cəmi 23,1% azalmışdır. Cəmi əkin sahələrinin həcmi isə 48,1% artmışdır ki, bu da kənd təsərrüfatına yararlı torpaqların sahəsi ilə müqayisədə cəmi 12,2% təşkil etməklə müvafiq artıma adekvat deyildir. Bütün bunların müqabilində iribuynuzlu və xırdabuynuzlu mal-qaranın yaşıl və quru otlardan yaranan yem bazasının formalaşdırılmasında mühüm rol oynayan biçənək və örüş-otlaq sahələrinin həcmində isə qeyri-dinamik artım müşahidə olunmaqdadır *(şəkil 3)*.



Şəkil 3. Əkinlər, biçənək və örüş-otlaq sahələrinin dinamikası

Ümumilikdə biçənək və örüş-otlaq sahələrinin həcmi 5,6% artaraq 1970-ci ildəki 2279,6 min hektardan, 2024-cü ildə 2406,4 min hektar təşkil etsə də, 2005-ci ildəki göstərici ilə müqayisədə 10,7% azalma müşahidə olunmuşdur. Ölkə əhalisinin hər 100 nəfərinə düşən biçənək və örüş-otlaq sahələrinin həcmi isə 1970-ci ildəki 43,6 hektardan, 2024-cü ildəki 23,5 hektara qədər azalmışdır ki, bu azalma müqayisə olunan dövrə nisbətən 1,8 dəfədən çoxdur. Statistik məlumatların təhlilindən göründüyü kimi, bu azalma 2005–2024-cü illərdə daha kəskin müşahidə olunmuşdur. Belə ki, ölkə əhalisinin hər 100 nəfərinə düşən biçənək və örüş-otlaq sahələrinin həcmi 2005-ci ildə 31,5 hektar təşkil etdiyi halda, 2024-cü ildə bu göstərici 25,4% azalaraq 23,5 hektar təşkil etmişdir. Biçənək və örüş-otlaq sahələrinin həcminin azalması bütövlükdə heyvandarlığın yaşıl yemlə və quru ot kütləsi ilə təmin edilməsində mühüm əhəmiyyət kəsb etməkdədir. Biçənək və örüş-otlaq sahələrinin həcminin azalmasının nəticəsidir ki, iribuynuzlu və xırdabuynuzlu mal-qaranın baş sayında ciddi azalmalar müşahidə olunmaqdadır. Belə ki, 2025-ci ildə

iribuynuzlu mal-qaranın baş sayı 2465,6 min baş təşkil etsə də, 2016-cı ilin müvafiq göstəricisi ilə müqayisədə 2708,3 min başdan 242,7 min başa, yaxud da 8,96% azalmışdır [2].

Müqayisə olunan dövrdə xırdabuynuzlu mal-qaranın baş sayında isə daha kəskin azalmalar müşahidə olunmaqdadır. Əgər 2016-cı ildə xırdabuynuzlu mal-qaranın baş sayı 8677,1 min baş idisə 2025-ci ildə bu göstərici 6896,5 min baş enmiş, yaxud 20,6% azalma ilə müşayiət olunmuşdur. İribuynuzlu və xırdabuynuzlu mal-qaranın baş sayında baş verən bu azalmalar təbii ki, əsas ərzaq məhsullarından olan ət və südün də istehsalının azalmasına səbəb olmaqla yanaşı, bu məhsulların ölkəyə idxalının artırılmasına, aqrar sahədə məşğulluğun azalmasına, ərazi məskunlaşmasına və digər dayanıqlı inkişaf problemlərinin də artmasına yol aça bilər.

Biçənək və örüş-otlaq sahələrinin həcminin azalması son nəticədə heyvandarlıqda hər inəkdən və qoyunlardan süd sağımının, bala veriminin və yun qırxımının kəmiyyət göstəricilərinə, eyni zamanda qeyd olunan məhsulların yağlılıq, cins, zərif liflilik kimi keyfiyyət göstəricilərinə də mənfi təsir göstərməkdədir. Heyvandarlığın yem bazasının formalaşdırılmasında mühüm rol oynayan biçənək və örüş-otlaq sahələrinin həcminin azalması, eyni zamanda kəndli təsər-üfatlarında səmərəli qoşqu vasitələri hesab olunan atlar və eşşəklərin də baş sayının kəskin azalması ilə müşayiət olunmaqdadır. Belə ki, 2012-ci illə müqayisədə ölkə təsərrüfatları üzrə mövcud olan atların baş sayı 2026-cı ildə 77,2 min başdan 49,4 min başadək, yaxud da 36% azalmışdır. Müqayisə olunan dövrdə eşşəklərin baş sayı isə 45,9 min başdan 12,7 min başa enmiş, yaxud da 3,6 dəfədən cox azalmışdır [2].

Kənd təsərrüfatına yararlı torpaqların struktur dəyişkənliyində baş verən müsbət dinamika biçənək və örüş-otlaq sahələrinin həcminin və dincə qoyulmuş torpaqların ümumi sahəsinin azalması ilə müşayiət olunmaqdadır ki, bu da gələcəkdə növbəli əkin sisteminin tətbiq olunmasında çətinliklərə səbəb olacaqdır *(şəkil 4)*.



Şəkil 4. Kənd təsərrüfatına yararlı torpaqların struktur dəyişkənliyi

Bütün bunlara baxmayaraq son illərdə kənd təsərrüfatına yararlı torpaqların ümumi həcmində cüzi azalmalar müşahidə olunsa da, 1970-ci illə müqayisədə əkin yerlərinin xüsusi çəkisi 31,5%-dən 42,6%-dək artmışdır. Dincə qoyulmuş torpaqların xüsusi çəkisi isə əksinə, 8,7%-dən 1,2%-ə, biçənək və örüş-otlaq sahələrinin xüsusi çəkisi 53,6%-dən 50,4%-ə, çoxillik əkmələrin xüsusi çəkisi isə 6,2%-dən 5,8%-dək azalmışdır *(cədvəl 1)*.

***Cədvəl 1.***
***Kənd təsərrüfatına yararlı torpaqların struktur dəyişmələri (1970 – 2024-cü illər)***

| Kənd təsərrüfatına yararlı torpaqların tərkibi, ilin axırına min ha%-lə | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllər | Kənd təsərrüfatına yararlı torpaqlar | | o cümlədən | | | | | | | | |
| | | | əkin yeri | | dincə qoyulmuş torpaqlar | | çoxillik əkmələr | | biçənək və örüş-otlaq sahələri | | |
| | min ha | % | min ha | % | min ha | % | min ha | % | min ha | % | |
| 1970 | 4253,0 | 100 | 1339,3 | 31,5 | 369,9 | 8,7 | 264,2 | 6,2 | 2279,6 | 53,6 | |
| 1980 | 4282,0 | 100 | 1360,9 | 31,8 | 180,9 | 4,2 | 404,8 | 9,5 | 2335,4 | 54,5 | |
| 1990 | 4382,9 | 100 | 1589,0 | 36,3 | 80,8 | 1,8 | 347,4 | 7,9 | 2365,7 | 54,0 | |
| 2000 | 4740,4 | 100 | 1766,8 | 37,3 | 58,8 | 1,2 | 236,8 | 5,0 | 2678,0 | 56,5 | |
| 2010 | 4766,8 | 100 | 1842,7 | 38,6 | 41,4 | 0,9 | 227,4 | 4,8 | 2655,3 | 55,7 | |
| 2020 | 4780,1 | 100 | 2045,2 | 42,8 | 39,2 | 0,8 | 272,7 | 5,7 | 2423,0 | 50,7 | |
| 2021 | 4780,6 | 100 | 2049,8 | 42,9 | 39,2 | 0,8 | 274,1 | 5,7 | 2417,5 | 50,6 | |
| 2022 | 4780,5 | 100 | 2052,8 | 43,0 | 39,1 | 0,8 | 273,6 | 5,7 | 2415,0 | 50,5 | |
| 2023 | 4779,6 | 100 | 2037,4 | 42,7 | 54,3 | 1,1 | 273,5 | 5,7 | 2414,4 | 50,5 | |
| 2024 | 4774,2 | 100 | 2034,2 | 42,6 | 59,0 | 1,2 | 274,6 | 5,8 | 2406,4 | 50,4 | |

Kənd təsərrüfatına yararlı torpaqların strukturunda baş verən dəyişikliklərin 1970 və 2024-cü illər üzrə müqayisəsi onu deməyə əsas verir ki, əkin yerlərinin artırılması dincə qoyulmuş torpaqların, biçənək və örüş-otlaq sahələrinin azalması hesabına deyil, şoranlaşmadan və digər səbəblərdən istifadəyə yararsız sahələrin istifadəsi üçün tədbirlər sisteminin hazırlanması və həyata keçirilməsinin təmin edilməsinə əsaslanmalıdır. Torpaq resurslarından istifadə zamanı istehsal vasitəsi kimi torpağın təbii və bioloji xüsusiyyətləri nəzərə alınmalıdır.

Digər istehsal vasitələrindən fərqli olaraq kənd təsərrüfatında torpaq resurslarının istehsal vasitəsi və təbiətin məhsulu kimi olması, ərazicə məhdud və yenidən yaradıla bilməməsi, digər istehsal vasitələri ilə əvəzlənə bilməməsi, müxtəlif iqtisadi rayonlarda keyfiyyətinin eyni olmaması, bir yerdən başqa yerə köçürülə bilməməsi, daimi istehsal vasitəsi kimi aşınıb məhv olmaması kimi xüsusiyyətləri vardır ki, bu da kənd təsərrüfatı istehsalının səmərəliliyinə güclü təsir göstərməkdədir.

Araşdırmalardan məlum olur ki, əsas istehsal vasitəsi olan torpaq sahələri müxtəlif dərəcədə deqradasiyaya məruz qalmaqdadır. Rəsmi istinad mənbələrinə görə, ölkə ərazisi üzrə 4774,2 min hektar kənd təsərrüfatına yararlı torpaq sahəsinin 2067,1 hektarı, yaxud 43,3%-i, onun da 15,5%-i şiddətli olmaqla bu və ya digər dərəcədə eroziyaya uğramış, 1332,5 min hektarı, yaxud 27,9%-i müxtəlif dərəcədə, onun da 220,5 min hektarı, yaxud 16,5%-i çox şiddətli dərəcədə şorlaşmış, 1339,0 min hektarı, yaxud 28,1%-i, onun da 8,4min hektarı, yaxud da 0,63%-i isə şiddətli səviyyədə şorakətləşmişdir. Həmin deqradasiya proseslərinin miqyasının günbəgün genişləndiyini və onun təsirinə məruz qalmış torpaq sahələrinin becərilməsi sahəsində ən keyfiyyətli toxum və əkin materiallarından, suvarma suyundan, gübrələrdən, pestisidlərdən və kənd təsərrüfatı texnikalarından istifadənin lazımi səmərə vermədiyini nəzərə alaraq, ilk növbədə bu torpaq sahələrinin münbitliyinin bərpası və meliorativ vəziyyətinin yaxşılaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi nəzərdə tutulmuşdur [3].

Kənd təsərrüfatına yararlı torpaqların deqradasiyaya uğramasının əsas səbəblərindən biri meşə zolaqlarının məhv edilməsi, səhralaşma, duzlaşma və torpaqların eroziyaya uğramasıdır. Kənd təsərrüfatının stabil inkişafının təmin edilməsi səmərəli suvarma üsullarından istifadə və digər aqrotexniki tədbirlərin düzgün təşkil olunması sayəsində mümkündür. Torpaqların yamaclarda və digər mailli ərazilərdə becərilməsi, meşə massivlərinin kortəbii istifadəsi və otlaqların normadan artıq yüklənməsi nəticəsində baş verən müxtəlif deqradasiya proseslərinin inkişafına zəmin yaradır. Torpaq səthində su axınlarının qarşısının alınması, eləcə də güclü küləyin təsirindən qorunma tədbirləri torpaqların mexaniki surətdə deqradasiyaya uğramasının və eroziya prosesinin qarşısının alınmasında istifadə oluna bilər.

Səhralaşmanın əsas səbəbləri qış və yay otlağı sahələrində mal-qaranın və davarların normadan artıq saxlanılması, otarma qaydalarına düzgün əməl edilməməsi, şumun və suvarmanın düzgün aparılmaması nəticəsində bitki örtüyünün məhv edilməsi, zərurət olmadan ağır və iriqabaritli texnikadan istifadə, su hövzələri və torpağın sənaye tullantılarının çirklənməsi ilə izah oluna bilər ki, bu da torpaqların təbii və süni münbitliyinin qorunub saxlanılması məsələlərini aktuallaşdırır.

Torpaqların təbii və süni münbitliyinin qorunub saxlanılmasının ərzaq və qida təhlükəsizliyi məsələsi ilə birbaşa əlaqədar olduğunu nəzərə alaraq münbitliyin qorunub saxlanılması sahəsində bütün səyləri birləşdirmək, aqrar sahənin inkişafına dair qəbul olunmuş dövlət proqramlarında, müvafiq qanunvericilik aktlarında torpaqların münbitliyinin qorunması, bərpası və mühafizəsi sahəsində bir çox vacib tədbirlərin həyata keçirilməsi zəruridir. Torpaqların münbitliyinin bərpası məqsədi ilə iri kəndli təsərrüfatlarının yaradılmasında intensiv əkinçiliyin tətbiq olunması, müasir becərmə texnologiyalarının tətbiqi, kənd təsərrüfatı istehsalçılarının texniki təminat səviyyəsinin yaxşılaşdırılması, kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin dəqiq uçotunun aparılması və mühafizəsinin təşkili üçün torpaqların vahid məlumat bazasının yaradılması kimi tədbirlər sayəsində aqrar sahədə istehsal potensialının və rəqabətliliyin möhkəmləndirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsinə təminatın yaradılması əsas prioritetlər sırasına daxil edilə bilər.

Kənd təsərrüfatı istehsalı ilə məşğul olan subyektlərin tamamilə vergilərdən azad edilməsi, torpaqdan istifadə zamanı amortizasiya ayırmaları həyata keçirilmədiyindən bitkiçilik və heyvandarlıq məhsullarının maya dəyərinin formalaşdırılmasında iştirak etməməsi gəlir və xərclərin

uçotunun aparılmamasında xətalara yol açaraq subsidiyalaşma siyasətinin səmərəliliyinə mənfi təsir göstərməkdədir. Elmi-texniki tərəqqinin sürətlənməsi nəticəsində kənd təsərrüfatında istifadə olunan istehsal vasitələrinin bir çoxu texniki və texnoloji innovasiyaların geniş tətbiqi nəticəsində əhəmiyyətli dərəcədə dəyişmişdir. Bitkiçilikdə istifadə olunan becərmə vasitələrinin inkişafı primitiv əmək alətlərindən müasir becərmə avadanlıqlarına və yığım texnologiyalarına qədər olan inkişaf mərhələsi keçmişdir. İntensiv əkinçilik texnologiyalarından nə qədər səmərəli istifadə olunsa da, torpaqların təbii münbitliyini və məhsuldarlığını qoruyub saxlamaq üçün biotexnologiyaların tətbiqinə əsaslanan əlavə resurslara olan tələbatlar kəmiyyət və keyfiyyət baxımından sürətlə dəyişməkdədir.

Bioloji, təbii və fiziki xüsusiyyətlərinə görə ayrı-ayrı iqtisadi rayonlara məxsus olan torpaq sahələri öz fərdi məhsuldarlığına görə də fərqlənirlər. Bunun nəticəsidir ki, hər hektar müxtəlif torpaq sahəsinə insan amilinin təsiri ilə eyni miqdar intensiv əmək – gübrələr, su, məhsuldar toxumlar, müxtəlif texniki xidmətlər və s. yönəltməklə sonda məhsul satışından fərqli gəlirlərin əldə olunması əhalinin ərazi məskunlaşmasına təsir edir. Yüksək maddi və mənəvi dəstəyin göstərildiyi şəraitdə insan amili torpaqların məhsuldarlığına aktiv təsir etmək gücünə malikdir. Bu təsirin səviyyəsi məhsuldar qüvvələrin inkişaf vəziyyətindən, kənd təsərrüfatında bunların texnoloji cəhətdən tətbiqolunma səviyyəsindən asılıdır ki, bunlar da torpagın münbitliyinin iqtisadi əsaslarını müəyyən edir.

Torpaq münbitliyinin mahiyyəti bitkilərin zəruri tələbatlarını, qidalı maddələrlə müəyyən bir vaxt ərzində xarakterizə olunmasını əks etdirərək, təkcə torpaqda olan qidalı maddələrin mövcudluğu ilə, torpaqdakı nəmliklə və onun strukturu ilə deyil, eyni zamanda torpağı becərmə prosesində ona əlavə suyun, üzvü və mineral gübrələrin verilməsi, meliorasiya və s. tədbirlərdən, eyni zamanda konkret əkinçilik tədbirlərinin həyata keçirilməsi zamanı təbii və iqti-sadi proseslərin qarşılıqlı əlaqəsindən asılıdır. İstehsal prosesində təbii münbit torpaqların istifadə olunma səviyyəsi aqrotexniki tədbirlərdən, maliyyə və insan amilindən necə istifadə olunma dərəcəsindən asılı olaraq kənd təsərrüfatının qarşısına qoyulan əsas məsələlərdən biri kimi torpaqlardan səmərəli istifadə olunmasından ibarətdir.

Torpaqların becərilməsi prosesində kimyalaşmanın və meliorasiyanın inkişafı, bitkilər üçün istifadə olunan qidalı maddələrin artırılması və torpağa insan amilinin aktiv təsiri nəticəsində süni münbitlik məsələsi meydana çıxır. Süni münbitlik məhsuldar qüvvələrin inkişaf səviyyəsindən asılı olaraq cəmiyyətin ayrı-ayrı inkişaf pillələrində qeyri-bərabər səviyyədə inkişaf etməkdədir. Kənd təsərrüfatı istehsalında torpağın süni münbitliyi suvarmanın və torpaq mühafizəsi tədbirlərinin həyata keçirilməsi, torpağın humusunun artırılması, mineral və üzvi gübrələrin verilməsi nəticəsində təmin olunaraq hər hektarın məhsuldarlığını artırır.

Təbii və süni münbitliyin məcmusu özlüyündə iqtisadi münbitliyi təmin edərək torpağın istehsal xüsusiyyətlərini daha dolğun əks etdirir. Torpağın münbitliyi ancaq kənd təsərrüfatı prosesində istifadə zamanı bitkilərin məhsuldarlıq göstəricisi ilə müəyyən olunur. Torpağın iqtisadi münbitliyini müqayisə etmək üçün torpağın məhsuldarlıq səviyyəsi göstəricisindən də istifadə olunur. Bu, bitkiçilik məhsullarının bir hektarına düşən miqdarı ilə müəyyənləşərək kənd təsərrüfatında vahid torpaq sahəsinə düşən əkinçilik məhsullarının miqdarının və maddi-texniki xərclərə nisbəti əlavə göstərici kimi istifadə edilə bilər.

**Kənd təsərrüfatında torpaq resurslarından istifadənin səmərəliliyi**

Kənd təsərrüfatına yararlı torpaqların səmərəli istifadə olunması və onun məhsuldarlığının daim artırılması torpaqların kəmiyyət və keyfiyyət göstəricilərinin uçota alınmasını tələb edir ki, bu da dövlət torpaq kadastrı vasitəsilə həyata keçirilir. Dövlət torpaq kadastrında torpağın huquq rejiminə, torpaq mülkiyyətçiləri arasında bölüşdürülməsinə, torpaq kateqoriyalarına, hətta yararlı torpaqların keyfiyyət xarakteristikası və qiymətliliyinə dair zəruri olan məlumatlar sistemi əks olunur. Dövlət torpaq kadastrına əməl olunması mütləqdir və torpaqların istifadəyə planlaşdırılması, istifadədə olan torpaqların geri qaytarılması, yer quruluşu işlərinin yerinə yetirilməsi, təsərrüfatçılıq fəaliyyətinin qiymətləndirilməsi, torpaqların istifadə və qorunması üçün dövlət nəzarəti zamanı istifadə olunur.

Dövlət torpaq kadastrı materialları torpağın kəmiyyət və keyfiyyət, hüquqi vəziyyəti və iq-

tisadi qiymətləndirilməsi haqqında dürüst məlumatları əhatə etməklə, ayrı-ayrı iqtisadi rayonlar üzrə kənd təsərrüfatı istehsalının yerləşdirilməsində və ixtisaslaşmasında, əkinçilik və heyvandarlıqda istehsal sistemlərinin aparılmasında əsaslandırılmış elmi yanaşmalardan istifadəyə imkanlar yaradır. Torpağın kəmiyyət və keyfiyyəti haqqında uçot məlumatları bütün kateqoriyadan olan torpaqlar üçün nəzərdə tutularaq faktiki istifadəyə görə müəyyən edilməklə torpağın qiymətləndirilməsi zamanı natural və dəyər, eləcə də, texniki-iqtisadi göstəricilərdən istifadə əsasında aparıla bilər.

Torpaqlardan səmərəli istifadəyə nəzarət məsələləri vaxtilə Azərbaycan Respublikası Torpaq və Xəritəçəkmə Komitəsinə həvalə edilsə də, hazırda torpaqlardan səmərəli istifadə olunmasına nəzarət məsələləri Əmlak Məsələləri Dövlət komitəsinə həvalə edilmişdir. Bu komitənin tərkibinə yer quruluşu və torpaq resurslarına dair Naxçıvan Muxtar Respublikasında və rayonlarda fəaliyyət göstərən yerli icra orqanları və bələdiyyələr də daxil edilə bilər. Bu qurumlar torpaq obyektlərinin malik olduğu mülkiyyət subyektləri, torpaqların istifadəyə və icarəyə verilməsinə dair məlumatların qeydiyyata alınması, kəmiyyət və keyfiyyət vəziyyətinə dair məlumatlar bankının yaradılması, torpağın vəziyyəti haqqında dəyişikliklərə dair məlumatlar toplamaq və torpaq kadastrı sənədlərində bu dəyişiklikləri qeydiyyata alınması ilə bağlı vəzifələrin yerinə yetirilməsində "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi haqqında Qanun"la tənzimlənən bir sıra tədbirləri həyata keçirməkdədir.

Kənd təsərrüfatında torpağın iqtisadi qiymətləndirilməsinin əsasında istehsalın həm təbii, həm də iqtisadi şəraitlərindən irəli gələn keyfiyyət müxtəliflikləri dayanaraq kənd təsərrüfatında xüsusi istehsal vasitəsi kimi müqayisəli qiymətləndirilməsini əks etdirir. İqtisadi qiymətləndirilmə zamanı ümumi məhsula, ümumi gəlirə, mənfəətə və s. göstəricilərə torpağın keyfiyyətinin təsir dərəcələri müəyyənləşdirilir. Torpağın iqtisadi qiymətləndirilməsi təbii-iqtisadi rayonlar üzrə, hər bir inzibati rayonun kənd təsərrüfatı istehsalındakı rolu nəzərə alınmaqla, əsasən ümumi iqtisadi qiymətləndirilmə və ayrı-ayrı kənd təsərrüfatı bitkilərinin istehsalının səmərəliliyi baxımından qiymətləndirilməsi kimi iki istiqamətdə aparılır.

Qiymətləndirilmə zamanı kənd təsərrüfatı bitkilərinin faktiki məhsuldarlığı və onlara çəkilən material xərcləri haqqında son beşillik məlumatlardan istifadə olunur. Qiymətləndirilmə göstəriciləri ayrı-ayrı torpaq qrupları, yəni suvarılan, suvarılmayan, meliorasiya olunmuş və olunmamış və s. üzrə aparılır. Kənd təsərrüfatında torpaqlardan istifadənin iqtisadi səmərəliliyi natural və dəyər göstəriciləri ilə xarakterizə olunur. Bunların içərisində istifadə olunan əsas göstəricilər aş natural ölçüdə bir hektardan əldə olunan kənd təsərrüfatı məhsulları bir hektara düşən ümumi məhsul, ümumi və xalis gəlir, mənfəət, bir hektara çəkilən material xərclərindən əldə olunan gəlir, istehsal edilən məhsulların rentabelliyindən ibarətdir.

**Nəticə.** Son dövrdə ölkə əhalisinin hər bir nəfərinə düşən kənd təsərrüfatına yararlı torpaq sahələrinin həcmi iki dəfəyədək azalmışdır. Bu azalmada mühüm rol oynayan əsas amillərdən biri torpaq resurslarının məhdud olması, obyektiv və subyektiv səbəblərdən kənd təsərrüfatına yararlı torpaqların istifadəsində yol verilən qüsurlar və əhali sayında müşahidə olunan dinamik artımlardır. Bunun nəticəsidir ki, əhalinin ərzaq, qida, geyim və digər istehlak tələbatlarının artım tempi ilə bu tələbatların ödənilməsində mühüm rol oynayan torpaq resurslarının mövcudluğu arasında tərs mütənasiblik müşahidə olunmaqdadır. Belə bir uyğunsuzluq şəraitində torpaq resurslarından səmərəli istifadə kənd təsərrüfatı istehsalında və ölkə iqtisadiyyatında məşğulluğun təmin olunmasında mühüm əhəmiyyətə malikdir.

Torpaqların ərazicə məhdud olması və onun məhsuldar üst qatının sahəsini artırmaq mümkün olmadığı kimi, hər bir ölkənin ərazisi torpaq sərhədləri ilə məhdudlaşmaqdadır. Milli coğrafi məkanlara aid olan torpaq resurslarından istifadənin sosial-iqtisadi əhəmiyyətini əsas tutaraq, ölkəmizdə də kənd təsərrüfatına yararlı torpaqlardan istifadəyə, mal-qaranın yaşıl və quru otlardan yaranan yem bazasının formalaşdırılmasında mühüm rol oynayan biçənək və örüş-otlaq sahələrinin həcmində baş verən qeyri-dinamik artımlara xüsusi diqqət göstərilməlidir. Kənd təsərrüfatına yararlı torpaqların strukturunda əkin yerlərinin artırılması dincə qoyulmuş torpaqların, biçənək və örüş-otlaq sahələrinin azalması hesabına deyil, şoranlaşmadan və digər səbəblərdən

istifadəyə yararsız olan sahələrin istifadə olunması üçün tədbirlər sisteminin hazırlanması və həyata kecirilməsinin təmin edilməsinə əsaslanmalıdır.

Torpaqların təbii və süni münbitliyinin qorunub saxlanılmasının ərzaq və qida təhlükəsizliyi məsələsi ilə birbaşa əlaqədar olduğunu nəzərə alaraq, münbitliyin qorunub saxlanılması sahəsində bütün səyləri birləşdirmək, aqrar sahənin inkişafına dair qəbul olunmuş dövlət proqramlarında, müvafiq qanunvericilik aktlarında torpaqların münbitliyinin qorunması, bərpası və mühafizəsi sahəsində icrası vacib olan bir çox tədbirlərin həyata keçirilməsi zəruridir.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/

2.https://www.stat.gov.az/source/agriculture/

3.https://www.agro.gov.az/az/texnika-ve-innovasiyalar/suvarma-ve-meliorasiya/torpaqlardan-semereli-istifade

4.https://www.fao.org/statistics/ru/

5.https://president.az/az/pages/view/azerbaijan/-constitution

V.Abbasov, T.Asgarov

## Key priorities for the efficient use of land resources in agriculture

**Abstract**

Statistical relationships between population growth and land availability are analyzed, and proposals and recommendations for the efficient use of land resources are prepared based on international comparisons. This article examines the key aspects of land use as the primary means of production, analyzing the role of land in the existence of human society and in satisfying its dynamically growing material and moral needs, as well as in achieving sustainable development. Along with the positive dynamics of structural variability in agricultural land, the causes of changes accompanied by a decrease in the volume of sown and pasture areas and the total area of fallow land are identified, and potential challenges to the future application of crop rotation systems are discussed. The issues of ensuring the implementation of necessary measures were discussed, such as strengthening the production potential and competitiveness in the agricultural sector through measures such as the creation of large-scale farms to restore soil fertility, the introduction of intensive farming, the use of modern land cultivation technologies, increasing the level of technical support for agricultural producers, organizing accurate accounting and protection of agricultural land, as well as the creation of a unified land database, including the efficient use of land among the main priorities.

В.Аббасов, Т.Аскеров

## Основные приоритеты эффективного использования земельных ресурсов в сельскохозяйственной сфере

**Аннотация**

Проанализированы статистические зависимости между ростом населения страны и уровнем обеспечения землей, а также подготовлены предложения и рекомендации на основе международных сравнений по эффективному использованию земельных ресурсов. В статье рассматриваются основные особенности использования земельных ресурсов как основного средства производства, анализируется роль земли в существовании человеческого общества и в удовлетворении его динамично возрастающих материальных и моральных потребностей, а также в достижении устойчивого развития. Наряду с позитивной динамикой структурной изменчивости сельскохозяйственных земель, выявлены причины изменений, сопровождающихся уменьшением объема сеяных и пастбищных площадей и общей площади залежей, а также рассмотрены возможные трудности применения системы севооборота в будущем. Были затронуты вопросы обеспечения реализации необходимых мер, таких как укрепление производственного потенциала и конкурентоспособности в агропромышленном секторе посредством таких мер, как создание крупных крестьянских хозяйств для восстановления плодородия почв, внедрение интенсивного земледелия, применение современных технологий обработки земли, повышение уровня технической поддержки сельскохозяйственных производителей, организация точного учета и защиты сельскохозяйственных земель, а также создание единой базы данных земель, включая эффективное использование земель в числе основных приоритетов.